Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə 2 aprel tarixində Lənkəran şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Lənkəran və Lerik sakinləri iştirak edə bilərlər.

Adları çəkilən rayonların sakinləri 1 aprel (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 – 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.